

*Nəcməddin MÜRVƏTOV*

## İNAN ÜRƏYİMƏ

Bəlkə də səhvim var, nəsə nöqsanım,
İmkan ver düşünüm, daşınım, qanım.
Tapım saf-çürüklə düzü, inanım,
Mümkün, hər kəs hərdən aza yol, çaşa,
Məni ürəyimlə burax baş-başa.

Yox, haqdan kənara çıxan deyiləm,
Üstünə nəyisə yıxan deyiləm,
Qəlbini azacıq sıxan deyiləm.
Quran da deyiləm oyun, tamaşa,
Məni ürəyimlə burax baş-başa.

Dinlədim, eşitdim şikayətini,
Kinli narazılıq hekayətini,
Duydum, hiss elədim bil niyyətini.
Dürüst qərarıma arxayın yaşa,
Məni ürəyimlə burax baş-başa.

Səninçün vəkilə dönəcəm özüm,
Olmaz yox, haqqında bircə sərt sözüm.
Xırda qüsuruna yumulmaz gözüm.
Mümkünsüz nahaqla ruhum barışa,
Məni ürəyimlə burax baş-başa.

Fərqi yox, inan ki, ola harda, kim,
Şəksiz söz-söhbətdə vicdanım hakim,
Hazıram verərsə cəzam nə, çəkim.
Düşmə zərrə qədər bundan təlaşa,
Məni ürəyimlə burax baş-başa.
16.03.2021

### UTANMAZ HEÇ

Ümid olma naxələfə,
Baxmaz ad-san, şan şöhrətə.
Haqda keçməz sən tərəfə,
Atar, zərrə utanmaz heç.

Məhəl qoymaz vaya, aha,
"Alıb" ucuz, "satar" baha.
Əməlindən hey günaha
Batar, zərrə utanmaz heç.

Olmaqdan qul ac nəfsinə,
Gedər var yığmaq dərsinə.
Bədliyinin zirvəsinə
Çatar, zərrə utanmaz heç.

Yanmaz kimsənin halına,
Aca, yalavac, yalına.
Yazıq malını malına
Qatar, zərrə utanmaz heç.

Haqq-hesabda öz xeyrinə,
Vurar sağ-sol dönə-dönə.
Yaxın dostunu düşmənə
Satar, zərrə utanmaz heç.

Ümid olma naxələfə,
Baxmaz ad-san, şan şöhrətə.
Haqda keçməz sən tərəfə,
Atar, zərrə utanmaz heç.
13.11.2022

## HƏRƏYƏ BİR ÖMÜR

Bir ömür yaşayır, hərə bir ömür,
Sevincli, fərəhli, qəm-kədər dolu.
Olur, günlər anla şərəfə dönür,
Olur, düşür ona əzabın bolu.

Sən nə sayırsan say, fələk sayan var,
Qurur istəyiylə haqqı, hesabı.
Döşünə döyəni xəcil edir, xar,
Bağlanır uğura haqdan kitabı.

Uçurum kənarından ümidsizləri
Zirvəyə qaldırır, çıxarır önə.
Ağıl bəxş eyləyir, qüdrət, hünəri,
Qartaltək sığıya, aslana dönə.

Edir bəziləri gözü, könlü tox,
Eləcə xeylini qul ac nəfsinə.
Qudurğan, yolunu azanlar həm çox,
Girən xeyirxahlıq etmək bəhsinə.

Cansızlar diriykən saysız, isə bax,
Can verib qazanan ölümsüzlüyü.
Ölümün gözünə baxmağıyla şax,
Haqqı qoruyan çox, duz, dürüstlüyü.

"Bir ömür" hərəyə Tanrının payı,
İstərsən boşa ver, istərsən yaşa.
"Bir ömür"-yox bundan qeyri, savayı,
Ötəcək anbaan, yetəcək başa.
30.07.2022

### MƏNİ TƏRİFLƏMƏ

Məni tərifləmə, öymə bu qədər,
İnan, zövq alıram adiliyimdən.
Ucuz şan-şöhrətlər mənasız, hədər,
Haqqım olanısa almayım nədən.

Söylə, soy-kökumdən qalanımı de,
Danla, çoxsa əgər itirdiklərim.
Cəmdə varlığımda olanımı de,
Bax ki, yetərlimi götürdüklərim.?

Şəhvim, nöqsanım var, günahlarım da,
Öyünmürəm də ki salim bəndəyəm.
Mənə məxsus olan az-çox varımda,
Olmayıb nə isə şişirdəm, deyəm.

Haqqa yönəlidir sabit xislətim,
Tanrıdan yazı bu: -"vurma sağ-sola".
Ola söz-söhbətim, kimlə ülfətim,
Bədi, naqolayı verirəm yola.

Özümə məlumdur dürüst kimliyim,
Öy məni, təriflə ya de vecsizəm.
Yetər vicdanımdan bəs, hakimliyim,
Yaxşı yamanımı ayıram, sezəm.

Məni tərifləmə, öymə bu qədər,
İnan, zövq alıram adiliyimdən.
Ucuz şan-şöhrətlər mənasız, hədər,
Haqqım olanısa almayım nədən.
21.07.2022

### AĞLINDAN KEÇMƏSİN

Düşünmə barəndə bəd fikirdəyəm,
Yoxdur iki başı məndə, yox sözün.
Nə zaman harda nə, söyləyəm, deyəm,
Şəksiz təsdiqidir doğrunun, düzün.

İnan, hüdudsuzdur sənə rəğbətim,
Özün qazanmısan, özün, bil bunu.
Gərək sayılmasın bu qəbahətim,
Qələmə alıram ən saf duyğunu.

Layiqsən hamıdan belə tərifə,
Verir hərə bir cür dəyər, qiyməti.
Qəbul etmirsənsə, olar son dəfə,
Dinmərəm bir daha şübhəsiz qəti.

Yaxşısı bu: kiməm, öyrənib tanı,
Sonra da barəmdə ver yekun qərar.
Sormaqla arasan əgər hər yanı,
Tapılmaz deyən ki, "bəd niyyəti" var.

Ruhən doğmalığın, səmimiyyətin,
Səbəbdir haqqında olan xoş sözə.
"Yaxşısan"-bundandır olan diqqətim,
Arzum-gəlməyəsən heç zaman gözə.

Düşünmə barəndə bəd fikirdəyəm,
Yoxdur iki başı məndə, yox sözün.
Nə zaman harda nə, söyləyəm, deyəm,
Şəksiz təsdiqidir doğrunun, düzün.
18.07.2022

### KİM TAPŞIRIB

Sanki aləm heç-puç olub gözümdə,
Çaşır, azır dildə kəlməm, sözüm də,
Ruhumlayam köksdən odum, közümdə.
Dərdim artır, yox çarəsi, dərmanı,
Kim tapşırıb kora qoyaq dünyanı.

Qərar verir nadan, naşı, avara,
Yapılmalı quru torpaq divara.
Anlamıram, belə axı biz hara
Yol almışıq soruşmadan ünvanı,
Kim tapşırıb kora qoyaq dünyanı.

Uyub yaman öz nəfsinə çoxu çox,
Ac ayaqda, burunlayır toxu tox.
Qəbul etmir harınları yoxu, yox.
Qazancına yozur qanun-qaydanı,
Kim tapşırıb kora qoyaq dünyanı.

Hər yanında ölüm, qırğın, fəlakət,
Şərəfsizlik vərdiş olub, bir adət,
Bəd əməldən yox ki çəkən xəcalət.
Yalan, nahaq geşt eyləyir meydanı,
Kim tapşırıb kora qoyaq dünyanı.

Seçməməkdən bəyaz ağı qaradan,
Özümüzük bəlaları yaradan.
Görəcəyik bir gün gəldi qara dan,
Günəş söndü, soracağıq Ay hanı?
Kim tapşırıb kora qoyaq dünyanı.

Sanki aləm heç-puç olub gözümdə,
Çaşır, azır dildə kəlməm, sözüm də,
Ruhumlayam köksdən odum, közümdə.
Dərdim artır, yox çarəsi, dərmanı
Kim tapşırıb kora qoyaq dünyanı.
15.06.2022

### KİŞİ SÖZÜ

Dediyini eyləyərdi şəkk-şübhəsiz,
Reklamla yox, hay-haraysız, küysüz, səssiz,
İş görməzdi elə-belə, yox, ürəksiz.
Əməlinə cəmlənərdi dürüst, düzü,
Bir dənəydi babalarda kişi sözü.

Gətirməzdi boş bəhanə olsa nəsə,
Bildiyini söyləyərdi qısa, kəsə,
Göstərərdi öz yerini tərsə, nəhsə.
Dəyişməzdi öz fikrini sıxsa yüzü,
Bir dənəydi babalarda kişi sözü.

Haqq dilində, göstərərdi haqqa inad,
Düşünməzdi bax belədə heç qohum, yad,
"Bəsdir mənə"-söyləyərdi-"pak, təmiz ad".
Varlığında ədalətə odu, közü,
Bir dənəydi babalarda kişi sözü.

Halallıqla dolanırdı, alın təri,
Yaşadırdı tək onları ruh, hünəri,
"Əl çirkidir"-deyib malı, pulu, zəri,
Sanardılar, toxdu bundan nəfsi, gözü,
Bir dənəydi babalarda kişi sözü.

Bambaşqaydı yaxınlıqda, etibarda,
Yetərdilər bircə himdən anda dada,
Ummazdılar əvəz nəsə hər mənada.
Xəcil qalmaz, qızarmazdı bərkdə üzü,
Bir dənəydi babalarda kişi sözü.

Belələri indi də var, amma tək-tək,
İnanmaqla söykəyəsən ona kürək,
Çox-çoxları şeytan qəlbli, üzdə mələk,
Yalan anda, əllərində Quran, cüzü,
Bir dənəydi babalarda kişi sözü.
21.05.2022

### AXTARMA, ARAMA

Axtarma, arama daha yox, məni,
Gəlmə görüşümə xəyalımda da.
Nə olar, başına yığ düşüncəni,
Artırma dərdimi bu halımda da.

Nə etsən qəlbimi ovutmaz daha,
Canımda yanğını soyutmaz daha.
Sənli arzularım boy atmaz daha,
Səbəbsən ağrımda, köks xalımda da.

Adınla bağlılar gözümdən düşüb,
Nə var aramızda çözümdən düşüb.
Səbrim yetmir artıq dözümdən düşüb,
Ötər bundan belə bu çalımda da.

Aram ol, barəndə gileyim ki, yox
Xırda bir tələbim, diləyim ki, yox.
Kinim, kidurətim ürəyimdə yox,
Yoxsan söz-söhbətim sualımda da.

İndi ixtiyarın özündədir tək,
İstər sevinc yaşa, istərsən qəm çək,
Təkcə bunu saxla yadında bərk-bərk,
Demə: "Bir anını vüsalım dada".

Axtarma, arama daha yox məni,
Gəlmə görüşümə xəyalımda da.
Nə olar, başına yığ düşüncəni,
Artırma dərdimi bu halımda da.
20.05.2022

## ÇƏTİNDƏ SINMA

Qəbul et Tanrıdan gələn sınağı,
Darılma, darıxma çətinə düşsən.
Bitir tez özünə sonsuz qınağı,
Çarəmi sınıxsan, sınsan, büzüşsən?

Belədə yardımçın səbrin, təmkinin,
Yüz ölçüb, bir biçib verdiyin qərar.
Aydınlıq gətirə düşüncə, dərkin,
Müşkülün həllinə açıla yollar.

Gözləmə, kim gəlib duracaq dayaq,
Bil ki, belələri az olur, çox az.
Min bir bəhanəylə çoxu bir sayaq
Səndən uzaqlaşar şəksiz danılmaz.

Tələsmə, gecikmə, düz-dürüst anı
Ötürmə, qaçırma gələn fürsəti.
Ruhunda inamın xırda imkanı
Uğura çevirər, onda bil qəti.

Narazı qalma da, gileylənmə də,
Kimsə yetişməzsə əgər dadına.
Olanlar olacaq nələr, vaxt-vədə
Rəbbindən yazılıb axı adına.

Qəbul et Tanrıdan gələn sınağı,
Darılma, darıxma çətinə düşsən.
Bitir öz-özünə sonsuz qınağı,
Çarəmi sınıxsan, sınsan, büzüşsən?
16.04.2022

### DÖNÜRÜK YADA

Yaman dalayırıq biri-birini,
Yaxın, qohum, qardaş-dönmüşük yada.
Bilmirik heç böyük-kiçik yerini,
Düşməklə nədənsə hey tərs inada.

Saqqız tək çeynənir adi deyim, söz,
Kökləyir qəlbləri kin, küdurətə.
Köksləre qoyuruq düşünmədən köz,
Haqq donu geydirib çox qəbahətə.

Qalmayıb kimsəyə etibar, inam,
Təkcə öz xeyrinə səy edir hərə.
Dillərdə dolaşır şübhədən qınam,
Böhtana keçirik hikkədən şərə.

Hamı aqil sayır, müdrik özünü,
Yoxdur ki, götürən öyüd, nəsihət.
Ağzı, hədyanıyla yumub gözünü,
Deyir:-"Mən deyəndir düz-dürüst,əlbət."

O bunu-bu onu salır çətinə,
Hərə öz dərdiylə qalır tənha, tək.
Qəsd edir toxunur ləyaqətinə,
Çıxır kəsdikləri yaddan, duz-çörək.

Üzür qananları bax bu əhval, hal,
Düşünür:"gedirik belə biz hara?"
Salır çarəsizlik ürəklərə xal,
Yol açır olmazın qəmə, qubara.
20.02.2022.